*Rəcəbli Röya Sərdar qızı, müəllim,*
*Bakı Biznes Universiteti,*
*Email: dreamistr96@gmail.com*

# İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ NİTQ FƏALİYYƏTİNİN ƏLAQƏLİ TƏŞKİL OLUNMASININ LİNQVİSTİK ƏSASLARI

Müstəqil dövlət statusunu yenidən bərpa etdikdən sonra Azərbaycan Respublikasının multisahəli beynəlxalq əlaqələri davamlı olaraq inkişaf etməkdədir. Siyasi stabillik və sürətlənən iqtisadi inkişaf ictimai həyatın bütün sahələrində böyük dəyişikliklərin aparılmasına, genişmiqyaslı islahatların keçirilməsinə geniş imkanlar yaratmışdır. Bu yeniləşmə təhsil sisteminə də öz müsbət təsirlərini göstərir. Odur ki, mütəxəssislərin peşə hazırlığının ayrılmaz hissəsi kimi çox fərqli bir profildən və bir çox cəhətlərdən dil təliminin keyfiyyətinin yüksəldilməsi, peşə məsələlərinin uğurlu həlli və xarici tərəfdaşlarla əlaqələrin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bütün deyilənlərlə bilavasitə əlaqəli olaraq, müəllim peşəsinin nüfuzunun yüsəldilməsi istiqamətində ümumtəhsil müəssisələrinin pedoqoji heyəti üçün modul-kreditli və rəqabətəsaslı təlimlər sistemi tətbiq edilir. Ümumtəhsil müəssisələri və müəllimlər arasında davamlı rəqabətin gücləndirilməsi, innovativ fəaliyyətin stimullaşdırılması, qabaqcıl təcrübələrin tətbiqi məqsədilə təhsildə inkişaf və innovasiyalar üzrə qrand müsabiqələri keçirilmişdir.

Bu gün xaricə inteqrasiya etmək, eləcə də ölkə daxilində ünsiyyət kanallarının genişliyini təmin etmək üçün müxtəlif xarici dillər öyrənilir. Belə dillər içərisində ən geniş miqyasda istifadə olunan ingilis dilidir. Bütün dünyada milyonlarla insan ingilis dilini öyrənməyə və bu dildə ünsiyyət qurmağa can atır. Odur ki, xarici dildən ünsiyyət məqsədilə istifadə etmək bacarığına yiyələnmiş mütəxəssislərin hazırlanması ali məktəblər, xüsusilə də ali ixtisas məktəblərinin qarşısında duran başlıca vəzifələrdən biridir.

Xarici dilin tədrisi metodikası başqa elmlərlə (psixologiya, pedaqogika, məntiq, sosiologiya,politologiya və.s.) olduğu kimi, linqvistika elmi ilə də sıx bağlıdır. Çünki metodika elminin bir sıra problemləri məhz dilçilik elmilə birgə öz həllini tapır, habelə bir sıra problemlərin həllində dilçilik elminin istifadəsi zərurəti qaçılmazdır. Nitq mədəniyyəti də həm tədris fənni, həm də elm kimi dilçiliyin fonetika, leksikologiya, qrammatika, üslubiyyat şöbələri ilə, həm də etika, estetika və incəsənətlə də əlaqəlidir. Dilçilər dili nitqin bazası, nitqi isə dilin ifadə forması kimi hesab edirlər. Dil nitqi formalaşdırma vasitəsidir, nitq isə özündə dili ehtiva etməklə onu canlandıran və ona həyat verirən bir fəaliyyət növüdür. Dil nitqə çevrilməklə reallaşır, nitq isə dil bazasında yarandığı üçün nitq mədəniyyəti də dil normaları əsasında formalaşır. Dilçilik elminin bir bölməsi olan nitq mədəniyyəti fonetik qanun və vasitələrə əsaslanaraq fikrin ekspressivliyini artırmağa xidmət edir [1]. İngilis dilinin leksik tərkibini mükəmməl mənimsəmiş, zəngin söz ehtiyatına malik olan, sözlərin işlənmə məqamlarını, emosional çalarlarını yaxşı bilən insan onlardan məqamında və bacarıqla istifadə etməyə qadirdir. Sözlərin həqiqi və məcazi mənalarından düzgün yararlanan natiqin nitqi mədəni və məntiqli olur. Ədəbi dilin leksik normalarından kənara çıxıb loru, vulqar sözlərə,

jarqonlara yer verən insanın nitqi isə dinləyicilərin marağının azalmasına səbəb olur. Qrammatik normaları, morfoloji və sintaktik formaları, müxtəlif dil xüsusiyyətlərini nitqdə yerli-yerində və bacarıqla işlədən adamın düzgün, məntiqli, səlis danışığı başqalarında xoş təəssürat yaradır, müsbət əhval-ruhiyyə bəxş edir.

Əsas obyekti söz olan dilçiliyin nitq mədəniyyəti ilə bağlılığı qaçılmazdır. Nitq fəaliyyəti təşkil olunan zaman onun linqvistik, yəni nəzəri əsaslarına mükəmməl yiyələnmək lazımdır. Məqsəd və vəzifələri müxtəlif olan dilçilik elmi ilə nitq mədəniyyətini yaxınlaşdıran xüsusiyyət ondan ibarətdir ki, onların hər ikisinin tədqiqat obyekti sözdür. Qrammatika dilçilik sahəsi kimi söz formalarını, onların dəyişmə və birləşmə qaydalarını, cümlə tərtibi məsələlərini öyrənən elmdir. Bildiyimiz kimi, qrammatik quruluş hər hansı bir dilin varlığı üçün əsas şərt olaraq, öz daxilində dilin ümumi qanunları əsasında inkişaf edib formalaşır və təkmilləşir. Dilin qrammatik quruluşu sözlərin, söz birləşmələrinin dəyişməsi və birləşməsi, cümlələrin tərtib edilmə qanun və qaydalarının məcmusudur. Nitq mədəniyyətinə yiyələnməkdə qrammatik qayda-qanunların gözlənilməsi bilavasitə olaraq düzgün tələffüz, intonasiya, vurğu, ritm kimi amillərlə qarşılıqlı vəhdət təşkil etməlidir. Üsluba uyğun olaraq müvafiq qrammatik qaydaları tətbiq etmədən nitqin keyfiyyət dəqiqliyi və məntiqiliyini saxlamaq, nitqin anlaşıqlı tərzdə ifadə olunmasına nail olmaq çətindir. Beləliklə, nitq mədəniyyəti qrammatik qanunlar çərçivəsində öz həllini tapmaqdadır. Nitq mədəniyyəti ilə üslubiyyat arasında qarşılıqlı əlaqə mövcuddur. Üslubun yaranması dilin özünün inkişafı ilə bağlıdır. Dilin inkişaf səviyyəsindən asılı olaraq müxtəlif dil üslubları meydana gəlmişdir. Hətta böyük yunan alimi Aristotel hələ eramızdan əvvəl üslub məsələsini nitq mədəniyyəti ilə əlaqələndirirdi [2].

Xarici dil, xüsusən də ingilis dilini bilmək uğurlu rəqabət üçün yüksək praktik əhəmiyyətə malikdir. İngilis dili tədrisinin məqsədi bu dildə uğurlu məlumat mübadiləsi aparmaq, sosial-mədəni keyfiyyətlərə yiyələnmək, peşəkar və ümumi mədəni nitq səriştəsinə sahib olmaq kimi bacarıq və keyfiyyətlərin aşılanmasıdır. Eyni zamanda, ingilis dili dünya təcrübələrindən bəhrələnmək, qabaqcıl texnologiyalardan istifadə etmək vərdişləri qazanmaq, elmi-texniki tərəqqinin nəaliyyətlərini mənimsəmək kimi geniş imkanlar vermiş olur. Bu imkanlara sahib olmaq isə ixtisas dilində kommunikativ kompetensiyaya sahiblənmək zərurətini meydana çıxarır. Məlumdur ki, təlim prosesi ingilis dilinin müvafiq tədris proqramları əsasında həyata keçirilir. Təhsil sistemi dil, laboratoriya və özünütəhsilin rasional nisbətini, növlərin məqbul paylanmasını nəzərdə tutur, habelə təhsil prosesini təmin edən bütün tədris və metodiki materialların yaradılmasının əsasını təşkil edir. İngilis dili tədrisinin məzmunu bir kateqoriya kimi başa düşülür və bu dil çoxölçülü olduğu üçün məzmun birkomponentli ola bilməz. Müasir tədqiqatçılar təlimin məzmununu davamlı olaraq inkişaf edən bir kateqoriya olaraq qəbul edirlər və bu kateqoriya aktual olduğu üçün davamlı şəkildə tədqiqatlara cəlb olunan bir mövzu olaraq seçilmişdir. Xüsusilə, ingilis dilinin tədrisi və bu prosesə xüsusi önəm verilməsi demək olar ki, ötən əsr boyunca diqqət mərkəzində olmuş və bu istiqamətdə müvafiq işlər görülməkdədir [3].

İngilis dili dərslərində nitq fəaliyyətinin əsas kateqoriyalarından olan oxumanın və dinləmənin müqayisəli xüsusiyyətlərini diqqətinizə təqdim edirik:

| Oxuma | Dinləmə |
|---|---|
| Ritm və temp oxuyandan asılıdır | Natiq ritm və templəri təyin edir |
| Bütün məlumatlar oxuyanın ixtiyarındadır | Məlumat tədricən verilir |
| Mətnin bəzi yerlərini təkrar oxumaq olar | Mətni təkrar dinləmə şansı olmur |
| Mətnin bəzi yerlərini keçmək və ya ötürmək olar | İdrak mütərəqqi olur |
| Mətnin olduğumuz yerində ləngimək olar | Verilən məlumatları diqqətlə izləmək lazımdır |

Hazırda ingilis dilinin tədrisində düzgün nitq vərdişlərinin formalaşdırılması məqsədilə üstünlük kommunikativ yönümlü təlimə verilir. Amma, onu da nəzərə almaq lazımdır ki, heç bir üsul mükəmməl deyildir, metodların hər birinin konkret təlim kontekstinə müvafiq şəkildə əlaqələndirilməsi tədris prosedurunun daha səmərəli şəkildə təşkil edilməsi və daha səmərəli nəticələrin əldə edilməsinə imkan verir. Hər bir tədris şəraitində eyni müvəffəqiyyətlə istifadə edilə bilən, universal sayılacaq hər hansı bir üsul mövcud deyil. Qeyd olunmalıdır ki, ingilis dilini istər şagirdlərə, istərsə də tələbələrə öyrətməkdə əsas məqsəd nitq fəaliyyətinin ardıcıl və sistemli inkişafıdır: danışmaq, yazmaq, oxumaq və dinləmək. Danışıq fəaliyyəti, dil sistemi ilə ifadə olunan və ünsiyyət vəziyyətindən asılı olaraq informasiyanın ötürülməsi və qəbulunun aktiv, məqsədyönlü bir prosesidir. Bu fəaliyyət şifahi və yazılı olaraq iki yerə bölünür. Buna uyğun olaraq, nitq fəaliyyətinin növləri də təbiətinə görə məhsuldar (productive) və qəbuledici (receptive) olur. Bununla əlaqəli olaraq nitq fəaliyyətinin dörd əsas növü vardır: danışıq, dinləmə, oxu və yazı [4]. Bütün bu fəaliyyət növləri dilin linqvistik əsasını təşkil edir. Beləliklə, ingilis dili fənninin tədrisinin əsas məqsədi bir neçə komponenti əhatə edən kommunikativ səriştənin formalaşdırılmasıdır:

- danışmaq, dinləmək, oxumaq və yazmaqda ünsiyyət bacarıqları;
- məlumat yaratmaq və anlamaq üçün bu dilçilik elmində dil bilik və bacarıqları;
- linqvistik və regional biliklər ünsiyyət səriştəsinin formalaşması mümkün olmayan bir mühitdə bunun üçün müvafiq sosial-mədəni imkanlar yaradır.

Tədris zamanı ingilis dilini bir ünsiyyət vasitəsi olaraq öyrənmək, şifahi və yazılı formada istifadə etməyi bacarmaq lazımdır. Bu zaman dörd növ nitq fəaliyyətinə yiyələnməliyik: qəbuledici - dinləmə və oxuma, məhsuldar - danışma və yazma, əlavə olaraq dilin onlarla əlaqəli üç cəhəti - lüğət, fonetika və qrammatika. Xarici dilin şəxsiyyətlərarası və beynəlxalq ünsiyyət vasitəsinə çevrilməsi üçün bütün ünsiyyət formalarını və bütün nitq funksiyalarını mənimsəmək çox vacibdir. Xarici dil dərsində danışıq öyrədilməsinin məqsədi tələbənin ümumdünya miqyasında qəbul edilmiş gündəlik ünsiyyət səviyyəsində onlardan qeyri-təhsil nitq praktikasında istifadə etməsinə imkan yaradan bu cür danışıq bacarıqlarının formalaşdırılmasıdır. Bu məqsədin həyata keçirilməsi tələbələrdə aşağıdakı ünsiyyət bacarıqlarının formalaşması ilə əlaqədardır:

- konkret ünsiyyət vəziyyətinə, nitq tapşırığına və ünsiyyət niyyətinə uyğun olaraq ingilis dilinin ifadələrini anlamaq və yaratmaq;
- ünsiyyət qaydalarını və hədəf dildə olan ölkənin milli və mədəni xüsusiyyətlərini nəzərə alaraq nitqlərini və danışıqdan kənar davranışlarını öyrənmək;
- ingilis dilini mənimsəməyin rasional metodlarından istifadə etmək, özünü inkişaf etdirmək.

Ən vacib tədris üsulu kommunikativ (nitq) vəziyyətdir. Ünsiyyət şəraiti danışığı öyrətmə metodu olaraq dörd amildən ibarətdir:

1. Ünsiyyətin həyata keçirildiyi reallıq şərtləri;

2. Rəsmi və qeyri-rəsmi ünsiyyət;

3. Nitq çağırışı;

4. Ünsiyyət aktının həyata keçirilməsi, yeni bir mövqe, danışıq stimulları yaratmaq.

Danışıq tədrisində yaranan əsas çətinliklərdən biri də motivasiya amili ilə əlaqədardır. Məsələn: tələbələr xarici dildə danışmaqdan utanırlar, səhv etməkdən, tənqid olunmaqdan qorxurlar və ya onların problemi həll etmək üçün kifayət qədər dil və nitq vasitəsi yoxdur. Bu və ya digər səbəbdən dərsin mövzusunu beyin fırtınasına cəlb etmirlər. İngilis dilində danışıq öyrədilməsində sadalanan bu və digər problemləri nəzərə alaraq imkan daxilində onları aradan qaldırmaq zərurəti yaranır. Yalnız müəyyən bir mövzuda standart dialoqlar qurmaqla, real vəziyyətlərə dalmadan danışmağı öyrənmək mümkün deyil. Tədrisə interaktiv yanaşma tələbələrin bilavasitə müzakirələrə (diskussiyalara), problemlərin həllində kooperativ fəaliyyətə və müxtəlif məzmunlu dialoqlara, habelə, dilin situativ və mütəşəkkil istifdəsinə cəlb olunmalarını zərurətə çevirir. Eyni zamanda tələbələrin ümumi dil, intellektual, təfəkkür qabiliyyətlərini, xarici dildə ünsiyyətə yiyələnmənin əsasını təşkil edən zehni proseslərini, eləcə də tələbələrin mənəvi dünyasını, müxtəlif kollektiv növlərində ünsiyyət mədəniyyətini inkişaf etdirmək də vacibdir.

## İstifadə olunmuş ədəbiyyat:


1. Əliyev K. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2001.
2. Muradov B. Nitq mədənityyəti. Bakı, 2007.
3. Abbasova S. İngilis dili fənninin tədrisi metodikasında yeni, müasir təlim və metodları. Bakı, 2005.
4. Артумов В.А. Культура речи. Москва, “Знание”, 1966.